# Sülhün və təhlükəsizliyin dayağı



Tarixboyu işğalçılar Xəzərlə Qara dəniz arasındakı məkana qoşun yeridib, buralara sahib çıxmağa can atıblar. Regionun əlverişli mövqeyi və zəngin təbii sərvətləri işğalçıların iştahasını çəkib, yuxularını pozub. 30 illik erməni işğalı da bu sərvətlərin talanması və "özəlləşdirilməsi" uğrunda daşnakların havadarları ilə birlikdə apardığı oyun idi.

Azərbaycan Prezidenti İlham Əliyevin dövlət başçısı kimi unikal keyfiyyətlərindən biri də illərlə düşmənin həmlələrinə duruş gətirmək və gözlənilmədən əks hücuma keçərək erməni işğalçılarına ölümcül zərbələr endirmək bacarığı oldu. O, "lazım gələrsə" deyəndə sadəcə zamanı nəzərdə tutmurdu, həm də geosiyasi vəziyyətin yetişmək anına işarə vururdu.

Üstəlik, İlham Əliyev bu illər ərzində boş da dayanmırdı. O, yeni qoşun növləri yaradır, güclü təlimlər keçir, Azərbaycan Silahlı Qüvvələrini NATO-nun sərt və yüksək tələblərinə cavab verən və hətta bəzi məqamlarda onları üstələyən, beşinci nəslin səviyyəsində müharibə aparmaq bacarığı olan orduya çevirirdi. İlham Əliyevin apardığı yeni ordu quruculuğu geniş ictimaiyyətə nümayiş etdirilməsə də, erməni işğalçıları ilə təmas xəttində ara-sıra baş verən toqquşmalardakı üstünlüklərimiz gələcək böyük Zəfərdən xəbər verirdi. Özündən razı ermənilər isə bu zaman "qaliblər" kimi uydurma qələbələrinin yorğanını başlarına çəkib mürgüləyirdilər. Elə bu yorğanın altında da onları məhv etdik. Ali Baş Komandan İlham Əliyev əsl sərkərdə qüdrəti ilə 44 günə erməni işğalçılarını Şərqi Zəngəzur və Qarabağdan qovdu.

Cənubi Qafqaz istənilən vaxt müharibənin od tutub alışa biləcəyi qaynar nöqtələrdən biri kimi qaldığı indiki zamanda da Azərbaycan Prezidenti İlham Əliyev mətin və uzaqgörən siyasətçi kimi sülhü qoruyub saxlayır. Dövlət başçısı inamla bütün maneələri aşır və ermənilərin sülhün cığırlarına düzdükləri bütün tələləri dağıdır.

Buna baxmayaraq, hələ də düşməni irəli itələyən və müharibələrə körükləyən qüvvələr tapılır. Atalar sözündə deyildiyi kimi, "it əl çəksə də, motal əl çəkmir". Rusiyada, Fransada və ABŞ-dəki erməni diaspor təmsilçiləri Qafqazı yenidən qan çanağına çevirmək üçün yeni hiylələr axtarıb tapırlar. Erməni diasporu təmsilçilərinin sonuncu Qarabağ müharibəsində rusları dümsükləyərək zorla türklərlə müharibəyə dartdıqları uzun zaman yaddan çıxmayacaq. Rusiyanın siyasi rəhbərliyinə hədə-qorxu gəlməkdən belə çəkinməyən yadelli ermənilər Rusiyanın bütün aparıcı KİV-i elə bağırırdı ki, sanki, rusların yarısı gedib Qarabağda döyüşməli idi. Bəzən də elə məqamlar yaradırdılar ki, Türkiyənin müharibəyə qatılmasına, sanki, bircə addım qalırdı. Bu zaman Azərbaycan Prezidenti müdrik gedişləri ilə tərəfləri əməkdaşlıq və qonşuluq ənənələrini davam etdirməyə çağırdı. Üstəlik, İranı da neytrallaşdırdı. Bu münasibətləri qoruyub saxlamaq bəlkə də qanlı döyüşlərdəki qələbələrdən daha çətin və daha vacib idi.

Ukrayna-Rusiya münaqişəsinin əvvəlində barışa yer var idi. Lakin iki qardaş xalq başqaları tərəfindən qarşılıqlı nifrətin və düşmənçiliyin bataqlıqlarına elə sürükləndilər ki, sülhə yer qalmadı. Əsrlər boyu qardaş olan iki xalq bircə anın içində barışmaz düşmənlərə çevrildilər. Belə münaqişəni bu gün Qafqazda da yaratmaq istəyənlər çoxdur. Amma onların qarşısında İlham Əliyev kimi uzaqgörən siyasətçi və qətiyyətli lider var.

Bir tərəfdən Qafqazda sülhün kövrək də olsa bərqərar olması, digər tərəfdən isə Azərbaycan-Türkiyə qardaşlıq münasibətlərinin fonunda Rusiya ilə iqtisadi əlaqələrin uğurlu məcraya yönəldilməsi İlham Əliyevin titanik siyasi fəaliyyətinin nəticəsidir. Azərbaycan Prezidentinin siyasi çevikliyi həm də ondan ibarətdir ki, o, düşməni ideoloji cəbhədə də məğlub etmək gücünə malikdir. İkinci Qarabağ savaşında dövlətimizin başçısının üstünə az qala qoşun-qoşun yeriyən xarici jurnalistlərin hamısını yerinə oturtması, haqqın kimin tərəfində olduğunu onlara anlatması bunun əyani təsdiqidir.

Biz onun şahidiyik ki, Türkiyə bu gün nəhəng regional gücə çevrilmişdir. İlham Əliyevin isə bacardığı ondadır ki, belə bir tarixi zamanda biz Türkiyənin kölgəsində yox, qardaş kimi yanındayıq. İkinci Qarabağ savaşı bunu bir daha bütün dünyaya göstərdi. Bu qələbə bizim ortaq şanlı tariximiz kimi yaddaşlara həkk olundu.

Qarşımıza çıxan sınaqlar və maneələr həddən artıq mürəkkəbdir. Lakin biz İlham Əliyev kimi dövlət başçısı ilə bu maneələri dəf edə, aşa bilirik. Çünki dövlətimizin başçısı kamil diplomat və qətiyyətli sərkərdə kimi ən ağır təhlükələri belə zamanında sovuşdurmaq gücünə qadirdir.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2022.- 24 dekabr.- S.8.